# Vətən uğrunda



**Keçən əsrin sonlarında Sovet İttifaqının dağılması ilə, Azərbaycan dövləti yaranan tarixi şəraitdən istifadə edərək öz müstəqilliyini ikinci dəfə bərpa etdi. 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd olan "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edildi. Qeyd olunan Konstitusiya Aktının 2-ci maddəsində deyilir: "Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisidir".**

Müstəqilliyi qazandıqdan sonra, doğma Vətənimiz çox çətin dövrü keçirdi. Respublikamızda ağır iqtisadi və siyasi vəziyyət yaşanırdı. Bununla yanaşı, əbədi düşmənimiz olan bədnam qonşularımız Qarabağ və ona yaxın rayonlarımızı zəbt etmək məqsədilə ölkəmizə qarşı müharibəyə başladı. Müstəqilliyi qazanan gənc respublikamız bu çətin ərəfədə Milli Ordumuzu yaratmağa başladı. Ordumuz yarandığı və formalaşdığı dövrdə Qarabağ bölgəsində erməni daşnaklarına qarşı ölüm-dirim mübarizəsi gedirdi. Əfsuslar olsun ki, 1-ci Qarabağ müharibəsi Azərbaycan xalqının yaddaşında düşmənlə qanlı döyüşlərdə Vətən uğrunda canlarından keçən 12 minə yaxın şəhidimiz, döyüş meydanlarında itkin düşmüş minlərlə soydaşımız, torpaqlarımızın 20% itirilməsi, 1 milyona yaxın məcburi köçkünümüz, erməni faşistlərinin əlinə düşən və işgəncələrə məruz qalaraq həyatlarını itirən əsirlərimiz və nəhayət, ölkəmizin iqtisadiyyatına vurulmuş böyük məbləğdə olan itkilərlə yadda qaldı.

Bu ağır dövrdə, yeni formalaşan Milli Ordumuzda zabit kadrları çatışmırdı, xidmətdə olan zabit heyəti Sovet qoşunlarında xidmət keçmiş və sonra yeni yaranmış Silahlı Qüvvələrimizə keçən zabitlər idi. Onların da sayı kəskin dərəcədə azlıq təşkil edirdi.

Bu dəfə söz açmaq istədiyim zabit, müstəqilliyimizi bərpa olunması ilində, hərb peşəsini seçərək, doğma Vətəni düşmənlərdən qorumaq üçün həyatını orduya həsr edən, hazırda ehtiyatda olan polkovnik Tağıyev Elbrus Qabil oğludur.

Elbrus Tağıyev 19 yanvar 1976-cı ildə Bakı şəhərində dənizçi ailəsində anadan olub. Atası Qabil Tağıyev, Xəzər Dəniz Gəmiçiliyində 40 il işləyib və bu illərin çox hissəsini gəmi kapitanı vəzifəsində çalışıb.

Elbrus ilk təhsilini Lökbatan qəsəbəsinin 139 saylı orta məktəbində alıb. Orta məktəbin 9-cu sinfini bitirdkdən sonra o, 1991-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olur. 3 il bu təhsil ocağında təhsil alan E.Tağıyev hərb həyatının ilk biliklərinə yiyələnir.

Hərbi Liseyi bitirən Elbrus, 1994-cü ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə qəbul olunur. BABKM-də o, Ümumqoşun fakültəsində motoatıcı ixtisası üzrə təhsil amağa başlayır. E.Tağıyev 4 il ərzində Ali Hərbi məktəbdə kursant yoldaşları ilə birlikdə, hərb sənətinin sirlərini öyrənir, peşəkar hərbi müəllimlərdən taktika, topoqrafiya, müxtəlif silah və texnika dərslərində lazımi biliklərə yiyələnir. Hərbi məktəbdə gələcək zabitləri nəzəriyyə dərslərindən əlavə tez-tez şəhərdən kənarda yerləşən poliqonlara aparırdılar, həmin poliqonlarda kursantlar müxtəlif silahlardan atəş açır və hər kəs öz peşəsinə uyğun hərbi texnikanı idarə edir və həmin texnikadan atəş açaraq öz bilik və peşəkarlığını artırırdı. Beləliklə, kursantlığın 4 ili arxada qalır və E.Tağıyev çoxdan gözlədiyi buraxılış imtahanına daxil olur. Bu imtahandan da başıuca çıxan Elbrus Ali hərbi məktəbi bitirərək 1998-ci ildə leytenant rütbəsinə layiq görülür.

Arzuladığı ilk zabit rütbəsini aldıqdan sonra Elbrus Tağıyev cəbhə bölgəsinə - Ağdam rayonuna taqım komandiri vəzifəsinə göndərilir. Bu bölgədə E.Tağıyev nə az, nə çox düz 10 il müxtəlif vəzifələrdə - taqım komandirindən briqadanın Əməliyyat bölməsinin rəisi-qərargah rəisinin müavini vəzifəsinə qədər xidmət edir. Daha sonra komandanlıq təcrübəli zabiti Qusar bölgəsinə bərabər vəzifəyə təyin edir. Sözügedən bölgədə mayor rütbəsində olan Elbrus Tağıyev 2014-cü ilə qədər xidmətini davam etdirir.

2014-cü ildə xidmətdə göstərdiyi uğurlu nəticələrinə görə, komandanlıq onu Bakı korpusunun Əməliyyat şöbəsində baş köməkçi vəzifəsinə layiq görür. 1 il bu korpusda xidmət etdikdən sonra, Elbrusu yenidən döyüş bölgəsinə - Beyləqan korpusunun Əməliyyat şöbə rəisinin müavini vəzifəsinə təyin edirlər.

Əməliyyat bölməsi və ya şöbəsinin zabiti, sözün əsl mənasında, hissənin "beyni" hesab olunur, çünki döyüş tapşırıqlarının planlaşdırılması, hazırlanması və idarə edilməsi onların çiyninə düşür. Onlar briqada və daha yüksək səviyyələrdə əməliyyatların gedişatını təşkil edir, kəşfiyyat məlumatlarını təhlil edir və komandanlığa qərar qəbul etməkdə kömək edirlər. Əməliyyat zabitləri, əməliyyatların - hücum və ya müdafiənin hazırlanması, əmr-direktivlərin işlənilməsi, döyüş gedişində qoşunların hərəkətlərinin koordinasiyası, düşmən fəaliyyətinin izlənilməsi və qüvvələrin qiymətləndirilməsi işini görürlər. Bu zabitləri keçmiş Hərbi Akademiyanın əvəzinə yeni yaranmış Milli Müdafiə Universitetində 5 aylıq xüsusi kurslarda hazırlayırlar.

2014-cü ildə Elbrus Tağıyevə polkovnik-leytenant rütbəsi verilir və o, 2018-ci ilə qədər Beyləqan korpusunda Əməliyyat şöbə rəisinin müavini vəzifəsində xidmətini davam etdirir. 2020-ci ildə Elbrus sözügedən korpusda təcrübəsi və bacarığına görə, Əməliyyat şöbəsinin rəisi vəzifəsinə yüksəlir.

27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində, Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı baslaması barədə qərar verilir. Qarşıdurmalar nəticəsində Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycanda isə hərbi vəziyyət və komendant saatı, 28 sentyabrda qismən səfərbərlik elan edilir. Beləliklə, İkinci Qarabağ müharibəsi başlanır.

Vətən müharibəsi başladığı zaman, polkovnik-leytenant Elbrus Tağıyev Beyləqan korpusunda Əməliyyat şöbəsində çalışaraq, müharibə şəraitində öz bilik və bacarığını nümayiş etdirməyə başlayır. Düşmənlə gedən amansız döyüşlərdə onun xidmət etdiyi korpus, Füzuli-Cəbrayıl istiqamətində irəliləyir. E.Tağıyev korpus komandiri general-leytenant Mais Bərxudarovun rəhbərliyi altında, ordu korpusunun və müharibə dövründə qeyd edilən istiqamətdə vuruşan qoşun növləri üzrə idarəetmə məntəqəsində aparıcı şəxs kimi döyüş əməliyyatlarına rəhbərlik edir. Ordumuz döyüş meydanlarında qələbələr qazanaraq, polkovnik-leytenant E.Tağıyev və onun rəhbərlik etdiyi bölmə, Cəbrayıl, Füzuli, Hadrut, Şuşa, Qubadlı, Zəngilan bölgələrinin düşməndən azad edilməsində böyük rol oynayır. Elbrus Tağıyev xidməti dövründə bir çox medallarla təltif olunur. Bu medallardan Vətən müharibəsi zamanı qazanılan "Vətən uğrunda" medalı isə, ən yüksək medal sayılır.

Elbrusla söhbət zamanı, müharibə dövründə onunla birgə çalışan bir çox zabit heyətindən xoş sözlər danışdı, onlardan - polkovnik Kutaisi Seyfullayev, polkovnik Elşən Sanayev, polkovnik-leytenant Telman Hüseynov və polkovnik-leytenant İntiqam Məmmədovun adını qeyd etmək olar.

2021-ci ildə Elbrus Tağıyevə göstərdiyi yüksək xidmətlərə görə, növbəti Ali rütbə - polkovnik rütbəsi təqdim edilir.

2023-cü il sentyabrın 19-da düşmənə qarşı antiterror əməliyyatı başlanır və cəmi 23 saat 43 dəqiqə davam edir. Azərbaycan Ordusu yüksək peşəkarlıq, texnoloji üstünlük və strateji planlama nəticəsində qısa müddətdə bütün hədəflərə nail olur. Ermənistan silahlı qüvvələrinin mövqeləri və uzunmüddətli istehkamları dəqiq zərbələrlə sıradan çıxarılır, Qarabağda 406 kvadrat kilometr ərazi tam şəkildə nəzarət altına alınır, düşmən yüzlərlə canlı qüvvə itirir, çoxsaylı texnika məhv edilir, minlərlə atıcı silah və hərbi texnika Azərbaycan Ordusu tərəfindən ələ keçirilir.

Antiterror əməliyyatı zamanı, polkovnik Elbrus Tağıyev Şəmkir Korpusunun Əməliyyat şöbəsinin rəisi vəzifəsində çalışaraq, bu əməliyyatın planlaşdırılmasında yaxından iştirak edib.

Xidmətində yüksək peşəkarlıq və bacarığına görə, komandanlıq polkovnik E.Tağıyevi 2024-cü ildə qardaş Türkiyə Respublikasının Hakkari bölgəsinə rəhbərlik etdiyi bir qrup zabitlə 6 aylıq xüsusi kursa göndərir. Elbrus bu bölgədə Türkiyəli hərbçilərlə döyüş hazırlığı və əməliyyat sahəsində illər ərzində qazandığı təcrübəsini bölüşür, eyni zamanda Türk Silahlı Qüvvələrinin döyüş hazırlığı biliklərini öyrənir. Bu kursu bitirdikdən sonra, polkovnik Elbrus Tağıyevi Quru Qoşunlarının Əməliyyat şöbəsinin rəisi-İdarə rəisinin müavini vəzfəsinə təyin edirlər.

2025-ci ildə E.Tağıyev ordu sıralarından tərxis olunaraq ehtiyata buraxılır. Hazırda o, Dövlət Sərhəd Xidmətinin Əməliyyat İdarəsində çalışır.

Polkovnik Elbrus Tağıyev kimi hərbçilərimizin sayəsində xalqımız 2020-ci ildə baş verən Vətən müharibəsində möhtəşəm Qələbə qazanaraq, illər ərzində düşmən taptağı altında olan doğma torpaqlarımızı azad etdi.

*İsmayıl ABDULLAYEV*
*Ehtiyatda olan zabit*